# Mənzər Niyarlının yaradıcılıq gecəsi



Bu yaxınlarda Bakı şəhər Mədəniyyət Baş idarəsi Yasamal rayonu Mərkəzləşdirilmiş Mirzə Şəfi Vazeh adına Mərkəzi Kitabxanasında tanınmış yazıçı, publisist Mənzər Niyarlının yaradıcılıq gecəsi keçirilmişdir. Tədbiri giriş sözü ilə Yasamal rayonu MKS - nin direktoru, tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova açaraq M.Niyarlının yaradıcılığından danışmış, onun "Vətəndən-Vətənə" romanı, povestləri və hekayələri haqqında geniş məlumat vermişdir. Tədbirdə filologiya elmləri doktoru Salidə Şərifova, şair və yazıçılardan Nüşabə Məmmmədli, Firuzə Məmmədli, Şövkət Horovlu, Nafilə Abuzərli, oxuculardan Yeganə Qaffarova, Ümbülbanu Aslanova, Emin Abdullayev və başqaları çıxış edərək yazıçının əsərlərini sevə-sevə oxuduqlarını və eyni zamanda oxucular tərəfindən maraqla qarşılandığını qeyd etdilər.

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 4 noyabr.- №- 42-43.- S. 32.**